# Əhaliyə keyfiyyətli tibbi xidmət göstərilir

**Son illər Azərbaycan dövlətinin uğurla apardığı siyasi-iqtisadi kurs nəticəsində ölkəmiz sürətlə inkişaf edir, beynəlxalq aləmdə özünəlayiq yer tutur. Bu tərəqqi ölkə həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də özünü qabarıq şəkildə göstərir. Əldə olunan uğurların təməlində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən səhiyyə islahatları dayanır. Heydər Əliyevin ölkə səhiyyəsinə, onun inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə də ən qabaqcıl mövqedə dayanır. Ulu öndər əhalinin sağlamlığının qorunmasının təmin olunması üçün ilk öncə səhiyyənin qanunvericilik bazasının möhkəmləndirilməsindən başladı. Bunun üçün "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti" və s. qanunlar işlənib hazırlanaraq qəbul olundu.**



Bu gün ölkə səhiyyəsinə göstərilən diqqət və mütəmadi qayğı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkə əhalisinin sağlamlığının tam olaraq təmin edilməsi üçün son bir neçə ildir ki, ölkə büdcəsində səhiyyə xərcləri xeyli dərəcədə artmışdır. Bu gün istər Bakıda, istərsə regionlarda yeni-yeni müasir tipli, dünya standartları səviyyəsində xəstəxanalar tikilib istifadəyə verilir, təmirə ehtiyacı olan tibb ocaqları əsaslı şəkildə təmir olunur, müasir texniki avadanlıqlarla təchiz olunur. Ölkəmizdə fəaliyyət göstərən tibb müəssisələri dünyanın qabaqcıl səhiyyə ocaqlarından geri qalmır, bəzi hallarda onları üstə-



ləyir. Bu barədə danışarkən ölkə başçısı qeyd edib: "Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsində gedir. Hətta deyə bilərəm ki, biz artıq Azərbaycan standartlarından da danışa bilərik".

Azərbaycanda əhalinin sağlamlığının keşiyində duran tibb ocaqları öz işlərində peşəkarlıq göstərərək yüksək nailiyyətlərə imza atırlar, ölkə səhiyyəsinin inkişafına öz layiqli töhfələrini verirlər. Təbii ki, bütün bu uğurların əldə olunmasında Səhiyyə Nazirliyinin və şəxsən nazir Oktay Şirəliyevin gərgin əməyi, xüsusi xidmətləri vardır. Rəhbərlik etdiyim Mirqasımov adına Respublika Klinik Xəstəxanasının kollektivi də səhiyyə sahəsində yaradılan münbit şəraitdən yararlanaraq əzmlə çalışır, tibbi xidmətimizdən istifadə edən bütün soydaşlarımızın sağlamlığının qorunması işində öz səylərini, bacarıqlarını əsirgəmirlər. Xəstəxanamızda keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün bütün lazımi şərait yaradılmışdır. Belə ki, müəssisəmizin həm I, həm də II korpusları əsaslı şəkildə yenidən qurulmuş, ən yeni, müasir texniki tibbi avadanlıqlarla təchiz edilərək əhalinin istifadəsinə verilmişdir. Xəstəxana rəqəmsal Maqnit rezonans və kompüter tomoqraf və rentgen aparatı, ultrasəs aparatı, süni tənəffüs aparatı və digər lazımi avadanlıqlarla təmin olunmuşdur. Xəstəxana isti və soyuq su ilə tam təmin olunub və bütün palatalada sanitar qovşağı var. Xəstəxana 655 çarpayılıqdır. I korpusda 19 müalicə şöbəsi fəaliyyətdədir. Bunlardan hamiləliyin patalogiyası, sinir xəstəlikləri, kardiologiya, qastrentologiya, endokrinologiya, nefrologiya və s. II korpusda 2 cərrahiyyə şöbəsi, BBQ xəstəlikləri şöbəsi, urologiya, hemotologiya, göz, üz-çənə cərrahiyyəsi



və s. Yardımçı şöbədə isə şua-diaqnostika, laboratoriya, müalicə, bədən tərbiyəsi və fizioterapiya, qanköçürmə işləri həyata keçirilir. Bundan başqa Dövlət Proqramına əsasən dağınıq skleroz, hemotoloji xəstəliklərin müayinə və müalicəsi, xəstələrin dərmanlarla pulsuz təminatı da xəstəxanamızda aparılır. Qeyd edim ki, ötən 2015-ci ildə xəstəxanamıza 14798 nəfər xəstə daxil olub. Bunlardan 6359 nəfəri cərrahi əməliyyat olunubdur.

Qeysəriyyə əməliyyatı üzrə 2203 nəfər, görmə orqanlarında 269, tənəffüz orqanlarında 982, qarın boşluğu orqanlarında 1610, böyrək və sidik axarında — 273 nəfərdir. 2015-ci ildə xəstəxanada tibbi keyfiyyətin daha da yaxşılaşdırılması üçün yeni tibbi və məişət avadanlıqları alınmışdır. Bunlara 2 ml. 390 min 325 manat xərclənmişdir. Bu tibbi avadanlıqlar Səhiyyə Nazirliyinin xətti ilə əvəzsiz olaraq xəstəxanaya verilmişdir. Qeyd edim ki, xəstəxana tərəfindən mərkəzləşdirilmiş qaydada digər xəstəxanalara 2015-ci il ərzində dərman və sarğı materialları paylanmışdır. Bunlar Topçubaşov adına Eksperimental Tədqiqat İnstitutu, Onkoloji Mikrocərrahiyyə Mərkəzi, Respublika Uşaq Klinik Xəstəxanası, 1 saylı Vərəm Dispanseridir. Ümumilikdə 2015-ci il üzrə dərman xərci 18763200, 41 manat, ərzaq xərci isə 1903104, 15 manat təşkil etmişdir.

Respublika Klinik Xəstəxanasında mərkəzləşdirilmiş yeməkxana fəaliyyətdədir. Nazirliyin təşəbbüsü ilə tərəfimizdən 15 xəstəxana isti və keyfiyyətli, gündə 3 dəfə olaraq yeməklə tam təmin olunur. Son zamanlar xəstəxananın ərzaq və dərmanlarla təchizatı xeyli yaxşılaşmışdır ki, bu cənab nazir Oqtay Şirəliyevin tibb ocağına göstərdiyi mütəmadi diqqət və qayğısının məntiqi nəticəsidir. Vurğulayım ki, cənab nazir dəfələrlə xəstəxanamızda olmuş və aparılan təmir işlərinin, xəstələrə göstərilən tibbi xidmətin keyfiyyəti ilə şəxsən maraqlanmış və öz göstərişlərini, tapşırıqlarını vermişdir. Onu da qeyd edim ki, cənab nazir ölkə Prezidentinin tapşırığına əsasən ötən il respublikanın 12 rayonunda olmuş, əhali ilə görüşərək onların bu sahədə olan problemləri ilə maraqlanmışdır.

Ötən 2015-ci il ərzində xəstəxananın həkim briqadası 3 dəfə Naxçıvanda olmuş və orada müəyyən xəstəliklərdən əziyyət çəkən 200-dən artıq xəstədə cərrahiyyə əməliyyatı aparmışdır. Burada 7 mindən çox əhaliyə tibbi xidmət göstərilmiş, müayinədən keçirilmişdir. Vurğulayım ki, xəstəxanamızda hər il mütəmadi olaraq Ulu Öndərin ad günü, Novruz və Qurban bayramlarında aksiyalar həyata keçirilir. Ötən ildə 280 aztəminatlı ailənin uşaqlarında sünnət əməliyyatı aparılmışdır. Bu işlər artıq son bir neçə ildir ki, mütəmadi olaraq həyata keçirilir və vətəndaşlar tərəfindən böyük məmnunluq hissi ilə qarşılanır. Məcburi köçkünlər, bölgələrimizdən gələn əksər vətəndaşlar bizim xəstəxanada göstərilən tibbi xidmətin keyfiyyətindən razı qalırlar.

Mirqasımov adına Respublika Xəstəxanasının kollektivi cənab Prezidentimizin apardığı uğurlu



daxili və xarici siyasəti həmişə dəstəkləyir və onun ətrafında sıx birləşir. Qeyd edim ki, mən Yasamal rayon YAP təşkilatının sədr müavini və icra hakimiyyətində şüranın üzvü kimi rayonda keçirilən bütün ictimai-siyasi, kütləvi tədbirlərdə yaxından iştirak edirəm. Onu xüsusilə vurğulayım ki, kollektivimiz ölkədə keçirilən Prezident seçkilərində, Milli Məclisə və bələdiyyə seçkilərində həmişə fəallıq göstərir, dövlətimizin, dövlətçiliyimizin daha da möhkəmlənməsi naminə səylə çalışır, qüvvə və bacarıqlarını əsirgəmirlər.

Qeyd etdiyim kimi, ötən 2015-ci il ərzində xəstəxanada tikinti-abadlıq və quruculuq işləri də uğurla həyata keçirilmişdir. Xəstəxananın həyətində yaşıl zona salınmış, xeyli sayda müxtəlif növ ağaclar əkilmişdir. Ümumilikdə istər I korpusun, istərsə də II korpusun həyətləri tam olaraq, yüksək keyfiyyətlə abadlaşdırılmış, estetik vəziyyətə gətirilmişdir. Xüsusi qeyd edim ki, son dövrlər səhiyyə ocaqlarının istər təmirində, istərsə də yenidən qurulmasında və müasir texniki avadanlıqlarla təchizatında Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın gördüyü işlər əvəzsiz rol oynayır.

Bu gün Azərbaycanda uğurla həyata keçirilən sosialyönümlü siyasət təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş strategiyanın parlaq təzahürüdür. Son illər yeni tikilən və əsaslı şəkildə təmir olunan tibb ocaqlarının, əhalinin sağlamlığının yüksək səviyyədə qorunmasının və digər mühüm vəzifələrin uğurla həyata keçirilməsi də bu gün Azərbaycan Prezidentinin bu sahəyə göstərdiyi diqqətin bariz təzahürüdür ki, biz hamımız, bütün səhiyyə işçiləri buna görə ölkə başçısına minnətdarıq və əmin edirik ki, bundan sonra da səhiyyəmizin inkişafı naminə öz layiqli töhfəmizi verəcəyik.

**Telman İBADOV,**
**Akademik Mirqasımov**
**adına Respublika Klinik**
**Xəstəxanasının baş həkimi.**